# İdman xəbərləri

## "Qəbələ" son dəqiqələrdə vurduğu qolla qələbə qazanıb

Fevralın 3-də Azərbaycan Premyer Liqasının XV turunun növbəti oyunu keçirilib.



Qəbələ şəhər stadionunda keçilən qarşılaşmada komandamız "Sumqayıt"ı qəbul edib.

İlk dəqiqələrdən hər iki komandanın cəhdlərinə baxmayaraq, birinci hissədə hesab açılmayıb. Fasilədən sonra da bərabər səviyyəli oyun müşahidə olunub. Qarşılaşmanın əsas vaxtının bitməsinə altı dəqiqə qalmış komandamız hesabı açmağa nail olub. Stiven Monroz uzaq məsafədən baxımlı qola imza atıb - 1:0. Qoldan sonra var qüvvəsi ilə irəli atılan sumqayıtlıların cəhdləri uğursuz olub və hesab dəyişməyib.

Beləliklə, "Qəbələ" qış fasiləsindən sonra keçirdiyi ilk oyununda qələbə qazanıb. Bu qələbən sonra xalları 20-yə çatdıran "Qəbələ" 5-ci, "Sumqayıt" isə 15 xalla 6-cı yerdə qərarlaşıb.

## Bəxtiyar Abbasov Azərbaycan çempionu oldu

"Qəbələ" İdman Klubunun samboçusu Bəxtiyar Abbasov növbəti uğuruna imza atıb. İdmançımız Azərbaycan çempionatında fərqlənib. O, qüvvəsini 90 kq çəki dərəcəsində sınayıb. Abbasov yarışda keçirdiyi bütün qarşılaşmalarda rəqiblərinə qalib gəlib. Samboçumuz çempion adına yiyələnərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

# Zəhərlənmələrə qarşı ən yaxşı meyvə

Respublikamızın bütün bölgələrində yetişən xurma insanlar tərəfindən sevilə-sevilə yeyilməsi yanaşı, xarici ölkələrə ixrac olunan və ölkəmizə valyuta gətirən əsas meyvələrdəndir. Xurma bitkisini dadına və şirinliyinə görə ləzzətlə yeyilsə də, onun tərkibindəki maddələrin zənginliyi və bir çox xəstəliklərin müalicəsində ələ vasitə olması haqqında adamlar tam bilikli deyillər.

Xurma meyvələrində su, quru maddə, şəkərlər, polifenol, yağlar, karotin, yod, üzvi turşular, zülali maddələr, likonin və C vitamini vardır. Həmçinin 100 qram meyvədə sortlar üzrə müxtəlif miqdarda elementlər, o cümlədən alüminium, barium, mis, xrom, dəmir, nikel, silisium, vanadium, fosfor, maqnezium, natrium, kalium, kalsium və sair vardır.



Qurudulmuş meyvələrdə daha çox quru maddə, şəkərlər, üzvi turşular, dabbaq maddələri və sair olur.

Xurma meyvələrindən həm təzə, həm qurudulmuş, həm də emal olunmuş şəkildə istifadə edilir. Onlardan müxtəlif cemlər, mürəbbə, povidlo, pastalar hazırlanır, unlu xörəklərdə işlənir.

Bu meyvə böyük pəhriz və müalicəvi əhəmiyyətə malikdir. Tibbdə hipertoniya və ateroskleroz, qalxanabənzər vəzlərin müalicəsində və triotoksikoz (zobdan yaranmış zəhərlənmələr) xəstəliyi zamanı istifadə olunur.

Onun büzüşdürücü, canlandırıcı xüsusiyyətləri orqanizmin soyuqlamaya və mikroba davamlı olmasını təmin edir, dəriyə müsbət təsir göstərir.

Xurma meyvələri müxtəlif mədə-bağırsaq xəstəlikləri, angina, qanazlığı, damağın müxtəlif mənşəli xəstəlikləri, qan dövranının pozulması, böyrək, öd yollarının xəstəlikləri, halsızlıq, vərəm, sinqa, isitmə, qadın xəstəlikləri ilə müalicədə mübarizə vasitəsi kimi istifadə olunur.

Xurmanın lətini qabığı ilə bərabər irinli yaraların üzərinə qoyduqda onlar tez sağalır.

Antibakterial xüsusiyyətə malik olan şirəsi orqanizmi təmizləyir, bağırsaq çöplərini və qızılı stafilokoku məhv edə bilir.

Hələ qədimdən həkimlər xurma şirəsini qan azlığı, halsızlıq, vərəm, soyuqlamadan baş vermiş xəstəliklər, qadın xəstəlikləri, sinqa, isitmə, həmçinin orqanizmin zəiflədiyi hallarda istifadə edirdilər. Şirə yeməkdən qabaq 1/4-1/2 stəkan olmaqla bir qaşıq bal ilə qarışdırılıb içilir. Qatılaşdırılmış xurma şirəsi (lətlə birlikdə) hipertoniya, qanazlığı, yuxarı tənəffüs yollarında selikli qişanın iltihabı zamanı faydalı sayılır.

Xurma şirəsi almaq üçün meyvələr əvvəlcə 12-15 saat müddətində 30-40 dərəcə C temperaturu olan suda saxlanılır.

Şəkərli diabet xəstələrinə (saxaroza çox olduğundan) xurma yemək məsləhət görülmür.

# Ayda radioteleskop quraşdırılacaq

Rusiya Elmlər Akademiyasının Tətbiqi Astronomiya İnstitutunun əməkdaşları Ayda radioteleskopun yaradılması konsepsiyası üzərində çalışırlar.

Günəş sistemində insanın mənimsəmək istədiyi növbəti obyekt Ay olduğu üçün hazırda bütün kosmos ölkələri bu istiqamətdə fəal işləyir. Yerdə olduğu kimi, orada da naviqasiya lazım olacağını bildirən institutun əməkdaşları buna görə də Ayda radioteleskop yerləşdirmək ideyasını irəli sürüblər. Bu teleskop Yerdə yerləşdirilmiş radioastronomik rəsədxana ilə birlikdə kvazarları müşahidə edəcək.

Qalaktikadan kənar obyektlərdən siqnal almaq Yerin və onun yeganə təbii peykinin qarşılıqlı hərəkəti zamanı Ayın hərəkətinin trayektoriyası haqqında məlumatları dəqiqləşdirməyə imkan verəcək. Bu məlumat Ayın mənimsənilmsi ilə əlaqədar istənilən layihənin reallaşdırılmasında önəmli olacaq.

Layihə təxminən 2030-cu ildə reallaşdırılacaq.

# İlk dəfə

*●İlk yazı makinası 1714-cü ildə İngiltərədə mühəndis Henri Mill yaratmışdır.*

*●Dünyada ilk aptek VII əsrdə Buxara və Bağdadda, XI əsrdə isə Avropada Tolelo şəhərində (İspaniya) yaradılmışdır.*

*●İlk dəfə kağız bizim eranın 105 ilində Çində Tsaj Lui adlı şəxs tərəfindən yaradılmışdır. Avropaya onu ərəblər gətiriblər.*

*●İlk qədim kitab Çində 868-ci ildə yaradılmışdır.*

*●İlk qlobusu 1492-ci ildə alman geoloqu M.Bexayon hazırlamışdır.*

*●İlk elektromaqnit teleqraf 1832-ci ildə Peterburqda (Rusiya) P. L. Şillin tərəfindən icad edilmişdir.*

*●İlk asfalt yol Nyu-Yorkda (ABŞ) 1872-ci ildə salınmışdır.*

*●İlk hesablayıcı maşın 1624-cü ildə gənc riyaziyyatçı B.Paskal tərəfindən yaradılmışdır.*

*●İlk avtomobil 29 yanvar 1886-cı ildə İngiltərədə yola çıxmışdır. Karl Bents-in müəllifi olduğu avtomobilin sürəti saatda 13 km olmuşdur*

*●İlk yeraltı tunel 4 min il əvvəl İraqda Fərat çayının altından salınmışdır, onun uzunluğu 1 km olmuşdur.*

*●İlk saat eramızdan 5 əsr əvvəl Misirdə icad edilmişdir.*

***Topladı: Qadir SƏMƏDOV, şəhər 2 nömrəli orta məktəbin şagirdi.***


# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

**qəzetinə**

**2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**


# Ən qədim atlas

AZƏRTAC "Rossiyskaya qazeta"ya istinadla xəbər verir ki, ABŞ-ın Şimal-Qərb Universitetinin İncəsənət Muzeyində açılan sərgidə XIV əsrə aid nadir atlas–"Kataloniya atlası" təqdim edilib.

1375-ci ildə Aralıq dənizinin Mayorka adasında tərtib edilən xəritədə Afrikanın orta əsrlərdə nəhəng sərvətindən və nüfuzundan danışılır.


# «QƏBƏLƏ» qəzetinin reklam xidməti

**205-19-14, 205-15-56**


# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə **Çuxur Qəbələ kənd sakini Məmmədov Məmməd Məhəmməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 109 A nömrəli (kod 40617018) və həmin tarixdə yuxarıda qeyd olunan qərarla **vətəndaşa və ailə üzvlərinə** verilmiş JN seriyalı 109 B nömrəli (kod 40617018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Həmzəli kənd sakini **Babayev Əmanət Gözəl oğluna** məxsus 36 BB 229 dövlət nömrə nişanlı ERAZ 762 V markalı avtomobilə AR BDYPİ-nin Şəki rayonlararası qeydiyyat-imtahan şöbəsi tərəfindən 07 noyabr 1998-ci il tarixdə verilmiş AA seriyalı 089043 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivi mərkəzin fiziki tərbiyə rəhbəri **Carul Babayevə** həyat yoldaşı

**RƏNA XANIMIN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib Qüdrət Səmədov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Dizayner Rais Rəşidov

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.